Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 34** **QƏRAR** **Bakı şəhəri, 5 fevral 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 5 avqust tarixli 433 №-li qərarı ilə təsdiq edilmiş "Xüsusi avtonəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında Təlimat"da dəyişikliklər edilməsi barədə

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 16 mart tarixli 484 nömrəli Fərmanının 3.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 5 avqust tarixli 433 №-li qərarı ilə təsdiq edilmiş "Xüsusi avtonəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci, 11-ci, 16-cı, 17-ci, 18-ci, 21-ci hissələrdən ismin müvafiq hallarında "Dövlət Sosial Təminat Xidməti" sözləri çıxarılsın.

2. 14-cü hissənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"TSEK-in qərarından narazı olan vətəndaşların müraciəti əsasında onların təkrar müayinəsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti tərəfindən həyata keçirilir.".

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***